

# Məzunlar arasında məmnuniyyət sorğusu

**13-31 yanvar 2025**

admiu.edu.az
dep.quality@admiu.edu.az

Təqdimatda ali təhsil müəssisəmizin məzunları arasında keçirilmiş məmnuniyyət sorğusunun nəticələri yer alır. Sorğunun əsas məqsədi məzunların təhsil müddətindəki təcrübələrini, məmnuniyyət səviyyələrini və verdikləri rəy və təklifləri öyrənməkdən ibarətdir.

Keyfiyyət təminatı prinsiplərinə əsasən, bu nəticələr tədris və idarəetmə proseslərinin təkmilləşdirilməsi, təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması və ümumi fəaliyyətin effektivliyinin artırılması üçün əsas rol oynayır. Həmçinin nəticələr, strateji inkişaf planlarının dəqiqləşdirilməsi və gələcək nəsillərə daha yüksək keyfiyyətli təhsil mühiti təmin etmək üçün istifadə edilir.

Sorğudan əldə olunan məlumatlar təhsilin keyfiyyətinin artırılması və müasir tələblərə uyğunlaşdırılması baxımından əhəmiyyət kəsb edir.



admiu.edu.az
dep.quality@admiu.edu.az



Məzun məmnuniyyəti sorğumuz ənənəvi məmnuniyyət sorğularından fərqli olaraq anonimlik prinsipindən imtina edilərək hazırlanmışdır. Bu yanaşma, universitetin məzun bazasını inkişaf etdirmək, məzunlarla əlaqələrin sistemli və davamlı şəkildə qurulmasını hədəfləyir, həmçinin məzunlarımızın təcrübələrindən və bacarıqlarından daha effektiv istifadə etməyə, onların universitetlə bağlılığına töhfə verməyə şərait yaradır.

Eyni zamanda, sorğu Keyfiyyət Təminatı Komissiyasına üzv olmaq istəyən məzunların müəyyən edilməsi məqsədini də daşıyır. Bu, məzunlarımızın universitetin idarəetmə və inkişaf proseslərində iştirakını təmin etməklə onların təklif və tövsiyələrinin nəzərə alınmasını mümkün edir. Belə bir yanaşma, həm təhsilin keyfiyyətinin artırılmasına, həm də məzunlarımızın təhsil mühitinin inkişafına birbaşa töhfə verməsinə imkan yaradır.

admiu.edu.az
dep.quality@admiu.edu.az

# Fakültələr üzrə iştirak




*Digər: Beynəlxalq münasibətlər, Sənətşünaslıq, Aktyor sənəti, Rejissorluq*

ADMİU

admiu.edu.az
dep.quality@admiu.edu.az




# İllər üzrə sorğuda iştirak

Sorğu nəticələrinə əsasən, iştirak edən məzunların əksəriyyəti (81 nəfər, 74%) 2021-ci ildən sonra məzun olanlardır. 2011-2020-ci illər aralığında 21 nəfər (19%), 2001-2010-cu illərdə isə 8 nəfər (7%) universiteti bitirənlər sorğuda iştirak edib. Daha əvvəlki dövrlərdən – 1980-2000-ci illər arasında məzun olanlar isə cəmi 2 nəfərdir ki, bu da köhnə məzunların iştirak səviyyəsinin çox aşağı olduğunu göstərir.

## Təkliflər

*Müxtəlif illərin məzunlarını bir araya gətirən görüşlər, seminarlar və şəbəkələşmə tədbirləri təşkil etmək;*

*Köhnə məzunların universitetin karyera mərkəzi və tələbələr üçün mentor kimi fəaliyyət göstərməsi təşviq etmək;*

*E-mail, sosial media və məzun şəbəkələri vasitəsilə daha effektiv məlumat paylaşımı təmin etmək;*




# Məzun olduğunuz təhsil səviyyəsi?

Məzunların böyük əksəriyyəti bakalavr təhsil səviyyəsi üzrə məzun olmuşdur – 88 nəfər (74%). Magistr təhsilini tamamlayanlar 26 nəfər (22%), doktorantura üzrə məzun olanlar isə yalnız 1 nəfərdir. Bu nəticələr göstərir ki, universitetin bakalavr səviyyəsində geniş məzun bazası olsa da, magistr və doktorantura səviyyələrinə marağın artırılması üçün əlavə təşviqedici tədbirlər və elmi tədqiqat imkanlarının genişləndirilməsi faydalı ola bilər.



ADMİU
admiu.edu.az
dep.quality@admiu.edu.az

# Universitetdə aldığınız təhsildən razısınızmı?

Məzunlarımızın əksəriyyəti universitetdən məmnun qalıb: respondentlərin 62%-i ("Çox razıyam" və "Razıyam" cavabları) müsbət münasibət bildirib, 27% isə neytral mövqe nümayiş etdirib. Yalnız 2%-lik kiçik bir qrup narazılıq ifadə edib ki, bu da ümumi məmnuniyyət səviyyəsinin kifayət qədər yüksək olduğunu göstərir və universitetin məzunların gözləntilərini əsasən qarşıladığını deməyə əsas verir.





ADMİU
admiu.edu.az
dep.quality@admiu.edu.az

# Məzun kimi universitetin Keyfiyyət Təminatı Komissiyasına üzv olmaq istəyərdinizmi?

Sorğu nəticələrinə görə, məzunların əhəmiyyətli bir hissəsi (62%) universitetin Keyfiyyət Təminatı Komissiyasına üzv olmaqda maraqlıdır. 15% isə bu təşəbbüslə maraqlanmadığını bildirib. Digər tərəfdən, 23% bu barədə konkret bir fikir formalaşdırmadığını ifadə edib. Bu nəticə məzunların böyük bir hissəsinin universitetin inkişaf proseslərinə aktiv şəkildə töhfə vermək istədiyini göstərir və eyni zamanda qərarsız qalanlar üçün daha geniş məlumatlandırma və təşviqat işlərinin vacibliyini vurğulayır.




admiu.edu.az
dep.quality@admiu.edu.az

# Gələcək illər üçün universitetin Strateji İnkişaf Planının hazırlanmasında iştirak etmək istəyərdinizmi?

Nəticələr göstərir ki, məzunların əksəriyyəti (78%) universitetin Strateji İnkişaf Planının hazırlanmasında iştirak etmək istəyir. Bu, məzunların yalnız təhsil aldıqları dövr ilə kifayətlənməyib, həm də universitetin gələcək istiqamətinə və inkişafına töhfə verməyə hazır olduqlarını ortaya qoyur. Universitetlə bu cür əməkdaşlıq istəyi, məzunların təhsil müəssisəsi ilə əlaqəni qorumaq və daha güclü akademik və sosial baza formalaşdırmaq arzusunu əks etdirir.

Eyni zamanda, 25 nəfər (22%) bu prosesdə iştirak etməklə maraqlanmadığını bildirib. Bu qrup üçün əlavə təşviqat və universitetin strateji hədəflərinin əhəmiyyəti barədə daha geniş məlumatlandırma proqramlarının təşkil edilməsi faydalı ola bilər. Bu, həm qərarsızları həvəsləndirmək, həm də mövcud potensialı maksimum istifadə etmək üçün bir fürsət yarada bilər.




admiu.edu.az
dep.quality@admiu.edu.az

admiu.edu.az
dep.quality@admiu.edu.az

# Məşğulluq statusunuz?



İşləyirəm
(başqa ixtisas üzrə)



İşləyirəm
(öz ixtisasım üzrə)



İşləmirəm



Təhsilimi davam etdirirəm

**İşləyirəm (başqa ixtisas üzrə) / İşləyirəm (öz ixtisasım üzrə):**

- Universitetin nüfuzu və verilən təhsil - **20**
- Şəxsi keyfiyyət və bacarıqlar - **66**
- İş təcrübəsi və peşəkar bacarıqlar - **35**
- Şəxsi əlaqələr - **17**
- Magistratura/Doktorantura təhsili - **16**
- Xarici dil biliklərim - **11**

**İşləmirəm:**

- İş axtarıram, lakin tapa bilmirəm - **13**
- Səhhətimlə bağlı problemlərim var - **0**
- Ailəvi səbəblərə görə işləmirəm - **3**
- İşləmək istəmirəm - **0**

**Təhsilimi davam etdirirəm:**

- ADMİU-da - **5**
- Azərbaycanın digər universitetlərində - **5**
- Ölkə xaricindəki universitetlərdə - **2**

ADMIU
admiu.edu.az
dep.quality@admiu.edu.az

# Sizi işə qəbul edərkən aşağıdakı hansı amillər rol oynadı?

Ən çox rol oynayan amil şəxsi keyfiyyət və bacarıqlardır (59%), bu da işəgötürənlərin ünsiyyət, liderlik və problem həll etmə kimi fərdi bacarıqlara önəm verdiyini göstərir. İkinci yerdə iş təcrübəsi və peşəkar bacarıqlar (31%) dayanır ki, bu da praktiki biliklərin əhəmiyyətini vurğulayır.

Universitetin nüfuzu və təhsili 18% tərəfindən mühüm amil kimi dəyərləndirilib. Şəxsi əlaqələr 15%, magistratura və doktorantura təhsili 14% və xarici dil bilikləri 10% olmaqla digərlərinə nisbətən daha az təsirli olub.

Bu nəticələr məzunların uğurunun əsasən fərdi və peşəkar bacarıqlardan asılı olduğunu göstərir. Buna görə də, universitetdə praktiki biliklər və iş təcrübəsinə yönəlmiş proqramların gücləndirilməsi vacibdir.



# Universitetdən qazandığınız bilik və bacarıqlar işə qəbulda sizə kömək etdimi?

Məzunların əksəriyyəti – 64 nəfər (75%) – universitetdə qazandıqları bilik və bacarıqların işə qəbulda onlara kömək etdiyini bildirib. 21 nəfər isə (25%) bu biliklərin praktiki iş mühitində onlara birbaşa təsir göstərmədiyini qeyd edib.

Bu sualın nəticələri əvvəlki cavablarla çarpaz şəkildə təhlil edildikdə, işə qəbulda şəxsi keyfiyyətlər (59%) və iş təcrübəsinin (31%) universitetin nüfuzundan (18%) daha böyük rol oynadığı görünür. Bu onu göstərir ki, akademik biliklər vacib olsa da, kifayət etmir. Məzunların əmək bazarında daha uğurlu olması üçün universitetdə praktiki bacarıqların inkişafına xüsusi önəm verilməlidir. Təcrübə proqramlarının genişləndirilməsi, peşəkar bacarıqları gücləndirən təlimlərin keçirilməsi və real iş mühiti ilə bağlı layihələrin artırılması bu sahədə daha yaxşı nəticələr əldə etməyə kömək edə bilər.






ADMİU
admiu.edu.az
dep.quality@admiu.edu.az

# İxtisasınız işinizlə nə dərəcədə əlaqəlidir?




Məzunların 42%-i tam olaraq ixtisasına uyğun sahədə işləyir. 34%-i ixtisası ilə qismən əlaqəli iş görür, bu da bəzi məzunların fərqli bacarıqlara ehtiyac duyduğunu göstərir. 19%-i isə tamamilə başqa sahədə çalışır ki, bu da ya iş imkanlarının məhdud olması, ya da karyera seçimində fərqli prioritetlərin rol oynadığını göstərir.

Nəticələr göstərir ki, məzunlarımız ixtisaslarına uyğun iş tapa bilmir. Universitetin karyera dəstəyi və əmək bazarı ilə əlaqələrinin gücləndirilməsi, məzunların ixtisaslarına uyğun iş imkanlarını artırmağa yardımçı ola bilər.

admiu.edu.az
dep.quality@admiu.edu.az

ADMİU

# ADMİU-da təhsil almağı ətrafınızdakı insanlara tövsiyə edərdinizmi?




Sorğu nəticələrinə görə, məzunların böyük hissəsi (73.9%) ADMİU-da təhsil almağı ətrafındakı insanlara tövsiyə edir. Bu, universitetin təhsil keyfiyyəti, mühit və təqdim etdiyi imkanlarla bağlı ümumi müsbət rəyin formalaşdığını göstərir.
Bununla yanaşı, 19.8% məzun konkret mövqe bildirməkdə çətinlik çəkib. Bu qeyri-müəyyənlik onların universitet təcrübəsinin tam olaraq gözləntilərinə cavab vermədiyini və ya üstünlüklərlə yanaşı bəzi çatışmazlıqların da olduğunu göstərə bilər. Bu qrup məzunların tərəddüdləri müxtəlif faktorlarla bağlı ola bilər: təhsilin tətbiqi yönümlülüyü, karyera perspektivləri və ya tələbəlik dövründəki ümumi təcrübələri.
6.3% isə universiteti tövsiyə etməyəcəyini bildirib. Bu göstərici çox yüksək olmasa da, onların narazılıqlarının səbəblərini araşdırmaq və bu istiqamətdə addımlar atmaq universitetin məzun məmnuniyyətini artırması üçün vacibdir. ADMİU-nun məzunlarla davamlı əlaqə saxlaması, onların fikirlərini nəzərə alaraq inkişaf strategiyalarını formalaşdırması və məzun təcrübəsini gücləndirən təşəbbüslər həyata keçirməsi bu nisbətlərin gələcəkdə daha da yaxşılaşmasına kömək ola bilər.

# İxtisasınız üzrə peşəkar kadr kimi, həmin ixtisasda tədrisin keyfiyyətinin yüksəldilməsi üçün ADMİU-ya tövsiyələriniz nədir?

Otel və tur agentlikləri ilə sıx əlaqədə olaraq tələbələr üçün maarifləndirici turizm seminar və tədbirlərinin keçirilməsi

Müasir Sənət Trendlərini əhatə edən proqram təşkil etməklə müasir incəsənət trendləri, yeni media sənəti (rəqəmsal incəsənət, interaktiv sənət) və texnologiya ilə bağlı mövzulara yer ayrıla bilər.

Rekvizitləri və səhnəni daha da təkmilləşdirmək. Bütün ləvazimatlara tələbələrin əlçatanlığını təmin etmək.

Dərs yükünü artırmaq və əsas ixtisas fənni olan "Aktyor sənəti" fənni üçün dərs saatlarını artırmaq lazımdır. 4-cü tədris ilində təhsil alan tələbələr üçün teatr studiyası yaratmaq və bu studiyanın bilet satışı həyata keçirməsi üçün müəyyən tamaşalar hazırlayıb tamaşaçı qarşısına çıxmaq. Gələn gəlir və tamaşaçı ilə gənc aktyorların artıq istehsalat təcrübəsini teatrlarda keçirməklərə ehtiyyacı qalmayacaq.

Tədris proqramları müasir turizm trendlərinə, texnologiyalara və qlobal standartlara uyğun yenilənməlidir. Tələbələrin xarici dil bilikləri inkişaf etdirilməlidir. Turizm idarəçiliyi və otel sistemləri üzrə proqram təminatlarının (məsələn, Amadeus, Galileo, Opera PMS) tədrisi vacibdir. Otellər, turizm agentlikləri, hava yolları və digər turizm təşkilatları ilə əməkdaşlıq edilərək tələbələr üçün təcrübə proqramları təşkil olunmalıdır. Turizm obyektlərinə ekskursiyalar və canlı layihələr tərtib edilməlidir. Turizm üzrə konfranslar və müsabiqələr təşkil edilərək tələbələrin öz layihələrini təqdim etmələri üçün şərait yaradılmalıdır.

# Məzunlarla işin təşkilinin yaxşılaşdırılması üçün ADMİU-ya tövsiyələriniz nədir?

Onların uğur hekayələrini universitet jurnalı və ya bloqunda yayımlamaq.
Məzunlara universitet vasitəsilə təcrübə və iş imkanları təqdim etmək.
Yerli və beynəlxalq şirkətlərlə əməkdaşlıq müqavilələri bağlamaq.

Məzun görüşlərinin təşkil edilməsi, onların təcrübəsini tələbələrə çatdırılmasının təşkili,doğma universitetimiz ilə əlaqələrin daim qorunub saxlanması üzrə digər işlər, təkliflər üzərində dayanmaq olar.

İxtisasları üzrə müəssisələrdə təcrübələrin daha çox keçirilməsi

Teatr sənəti fakültəsində təhsil alan tələbələr üçün panel müzakirələr təşkil etmək və tez-tez dövlət teatrlarının rəhbərləri ilə görüşlər keçirmək.

Tez-tez master-klaslar keçirmək, O cümlədən xarici incəsənət universitetləri ilə əməkdaşlıq etmək

Daha çox yaradıcı layihələr. Gəncləri yeni layihələrə cəlb etmək görüşlər keçirmək üçün dəstək ola bilərəm!

Məzunlar Assosiasiyası: Aktiv məzunları bir araya gətirən və onlarla universitet arasında körpü yaradan bir assosiasiya qurmaq. Bu, həm məzunların əlaqəsini gücləndirər, həm də onların təcrübələrindən faydalanmaq imkanı yaradardı.

ADMİU
admiu.edu.az
dep.quality@admiu.edu.az

# Diqqətiniz üçün təşəkkürlər

admiu.edu.az
dep.quality@admiu.edu.az